Azərbaycan xalqı ölkəmizin tarixində mühüm strateji rol oynayan "Əsrin müqaviləsi"nin imzalanmasının 25-ci ildönümünü qeyd edir. Dövlət müstəqilliyimizin ilk illərində, olduqca ağır geosiyasi şəraitdə ümummilli lider Heydər Əliyevin gərgin səyi nəticəsində imzalanan bu müqavilə Xəzər dənizi hövzəsində beynəlxalq əməkdaşlıq üçün əlverişli zəmin yaradıb, regionun enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişib. Müqavilə çərçivəsində Xəzərin Azərbaycan sektorundakı dərinsulu yataqların işlənilməsi üçün ölkəyə zəruri texnologiyalar, müasir istehsalat üsulları cəlb edilib, kəşfiyyat, hasilat, qazma, neft-qaz emalı və kimyası, informasiya texnologiyaları, insan resursları–bir sözlə, bütün sahələr üzrə innovativ metodlar tətbiq edilib.

"Əsrin kontraktı" ulu öndər Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir, onun başlanğıcıdır. Məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başlamışlar. "Əsrin kontraktı"nın imzalanması nəticəsində on minlərlə yeni iş yeri yaradılmışdır. Azərbaycanda minlərlə şirkət bu kontraktın icrasında podratçı kimi fəaliyyət göstərir. Yəni, "Əsrin kontraktı"nın çox böyük faydası var.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

"Əsrin müqaviləsi" Azərbaycanı dünyada yüksək strateji enerji təchizatçısı kimi tanıdıb

İyirmi beş il əvvəl, 1994-cü ilin sentyabrında həmin müqavilənin imzalanması ötən dövr ərzində müstəqil Azərbaycanın inkişafını böyük dərəcədə təmin edib. Bu müddətdə müqavilədən əldə olunan gəlirlər ölkəmizin bütün sahələrində özünü büruzə verib. Respublika sənayesi müasir tələblər səviyyəsində modernləşdirilib, yeni istehsalat sahələri və iş yerləri yaradılıb, qeyri-neft sektoru gücləndirilib. Zəngin tarixə malik neft-qaz sənayesi öz inkişafının yeni, daha yüksək mərhələsinə qədəm qoyub. Nəticədə həyata keçirilən regional və qlobal birgə layihələrdə bütün istehsalat, inşaat və quraşdırma işləri ölkə daxilində, SOCAR və digər yerli müəssisələr tərəfindən uğurla icra olunub.

O zaman "Əsrin müqaviləsi"nin mühüm tərkib hissələrindən biri də xarici şirkətlərlə birlikdə hasil olunan neftin nəqlini və xarici bazarlara ixracını gerçəkləşdirmək üçün çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması idi.

Yeri gəlmişkən, həmin vaxt mövcud Bakı-Novorossiysk marşrutu ilə Azərbaycan neftinin daşınması üçün 1996-cı ilin yanvarında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalandı. Bundan bir il sonra həmin xətt istifadəyə verildi, 1998-ci ildə isə "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil edilən neftin Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixracı reallaşdı. Lakin "Əsrin müqaviləsi" çərçivəsində hasil ediləcək böyük neft həcmləri ilə müqayisədə bu kəmərin ötürücülük qabiliyyəti məhdud idi. Ona görə də ixrac boru kəmərlərinin çoxvariantlılığının zəruriliyi məsələsi ortaya çıxdı və alternativ variantlar üzərində ciddi iş aparılmağa başlanıldı. Beləliklə, 1997-ci ildə neftin Qara dənizə çıxarılması üçün Bakı-Supsa marşrutu ilə nəqli haqqında Azərbaycan və Gürcüstan arasında saziş imzalandı. 1999-cu ilin aprelində Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi.

Lakin bu da neftin tam nəqli üçün kifayət etmirdi. Başqa sözlə, Bakı-Supsa və Bakı-Novorossiysk boru kəmərləri Azərbaycanın getdikcə artan iri neft həcmlərini dünya bazarına ixrac etmək iqtidarında deyildi. Elə buna görə də əsas ixrac neft boru kəmərinin qısa zamanda inşası zərurəti yarandı. Belə olan təqdirdə ulu öndər Heydər Əliyev Bakı–Tbilisi–Ceyhan (BTC) əsas ixrac neft boru kəməri ideyasını gündəmə gətirdi. Respublikamızın həm daxildəki, həm də xaricdəki bədxahları müxtəlif bəhanələr gətirərək, beynəlxalq ictimai rəydə guya Azərbaycanın gələcəkdə bu kəmərlə ixrac etmək üçün kifayət qədər nefti olmayacağı barədə fikir yaratmağa çalışır, bu ideyanı utopiya sayırdılar. Lakin zaman ulu öndərin bu konsepsiyasının tamamilə real, həm də iqtisadi cəhətdən səmərəli olduğunu sübuta yetirdi.

Bu ideyanı qəbul etmək istəməyən bəzi qüvvələrin cəhdlərinə baxmayaraq, ümummilli liderin səyi və gərgin keçən danışıqlar prosesinin məntiqi nəticəsi olaraq sözügedən layihə həyata vəsiqə aldı. ATƏT-in 1999-cu il noyabrın 18-də İstanbulda keçirilən sammitində BTC əsas ixrac boru kəmərinin çəkilişi ilə bağlı bəyannamə imzalandı. Bununla da BTC layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradıldı. Daha sonra isə layihənin bəzi detallarının dəqiqləşdirilməsi, lazımi maliyyə mənbələrinin müəyyənləşdirilməsi ilə bağlı danışıqlar aparıldı.

Nəhayət, 2002-ci il sentyabrın 18-də Bakıda – Səngəçal terminalının ərazisində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Heydər Əliyev, Eduard Şevardnadze və Əhməd Necdət Sezərin iştirakı ilə BTC əsas ixrac boru kəmərinin təməli qoyuldu. Bununla da ümummilli lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının mühüm tərkib hissələrindən olan BTC əsas ixrac boru kəməri layihəsinin reallığa çevrilməsinə başlanıldı, 2003-cü ilin fevral ayında Səngəçal terminalından başlayaraq kəmərin tikintisinə start verildi. 2004-cü ilin oktyabrında BTC əsas ixrac boru kəmərinin Azərbaycan hissəsi Gürcüstan ərazisindən keçən hissəsi ilə birləşdirildi. BTC əsas ixrac boru kəmərinin Gürcüstan hissəsi isə 2005-ci ilin oktyabrında istifadəyə verildi.

Ulu öndər Heydər Əliyevin neft strategiyasının ardıcıl şəkildə reallaşdırılması sahəsində misilsiz xidmətlər göstərən Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən etibarən layihənin gedişi ilə bağlı şəxsən maraqlanıb, vaxtaşırı tikinti işləri ilə tanış olub. Nəhayət, 2005-ci ilin aprelində tikinti işləri yekunlaşdırılıb, həmin il mayın 25-də Səngəçal terminalında xam neftin BTC əsas ixrac boru kəmərinə vurulması ilə bağlı rəsmi tədbir keçirilib. Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları terminalda quraşdırılan xüsusi qurğudakı sürgünü açdıqdan sonra kəmərlə ilkin neft axmağa başlayıb. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatıb. İyulun 4-də isə neftlə yüklənən ilk tanker buradan yola salınıb.

Dövlətimizin başçısı İlham Əliyev həmin mərasimdə söylədiyi nitqində qeyd edib: "Azərbaycan tarixdə ilk dəfə olaraq, Xəzər dənizinin özünə məxsus olan sektoruna xarici investorları dəvət etdi. Ondan əvvəl Xəzər dənizində xarici şirkətlər heç vaxt fəaliyyət göstərməmişdir. Bütövlükdə, Azərbaycan neft ölkəsi kimi tanınır. Dünyada ilk dəfə sənaye üsulu ilə neft Azərbaycanda çıxarılmışdır. O cümlədən, dünyada dəniz yataqlarından ilk dəfə neft Azərbaycanda, Xəzər dənizində hasil edilmişdir. 1994-cü ildə başlanmış yeni layihələr Azərbaycana onun neft şöhrətini təzədən qaytardı".

BTC əsas ixrac neft boru kəmərinin çəkilməsi ilə reallaşan və ulu öndər Heydər Əliyevin bir neçə onilliklər üçün hesablanan neft strategiyasının həlli və uğurla davam etdirilməsinin nəticəsidir ki, hazırda Azərbaycan dünya birliyində siyasi-iqtisadi inkişafı, qlobal hadisələrə təsir imkanları artan nüfuzlu dövlət kimi tanınır.

Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara genişmiqyaslı nəqli və ölkədə çoxvariantlı ixrac strategiyasının həyata keçirilməsi üçün əlverişli imkan yaranıb, eyni zamanda, ölkəmizin tranzit potensialı bir neçə dəfə artıb.

Xatırladaq ki, BTC əsas ixrac boru kəməri əsasən "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil edilən nefti və "Şahdəniz" yatağından çıxarılan kondensatı Azərbaycandan nəql edir. Bundan əlavə, hazırda Türkmənistan nefti də bu boru kəməri vasitəsilə nəql olunur. 2013-cü ilin oktyabrından etibarən isə BTC boru kəməri ilə yenidən müəyyən həcmlərdə Qazaxıstanın "Tengiz" yatağından çıxarılan xam neftin nəqlinə də başlanılıb.

Kəmərin illik ötürücülük qabiliyyəti 50 milyon tondur ki, bunu da gələcəkdə 60 milyon tona çatdırmaq mümkündür. Qeyd etdiyimiz kimi, 1768 kilometr uzunluğa malik BTC boru kəməri 2006-cı ilin iyunundan istismardadır. İndiyədək BTC kəməri ilə 3,3 milyard barreldən çox neft nəql olunub və Ceyhan limanında təqribən 4300 tankerə yüklənərək dünya bazarına göndərilib. Cari ilin yanvar-avqust aylarında bu kəmər vasitəsilə 26 milyon 384,4 min ton neft ötürülüb. Səkkiz ayda BTC əsas ixrac boru kəməri ilə 3 milyon 100,8 min ton tranzit nefti də nəql olunub.

Yarım ildə BTC əsas ixrac boru kəməri üzrə əməliyyat xərclərinə təqribən 55 milyon dollar, əsaslı xərclərə isə 12 milyon dollar sərf edilib.

Sonda qeyd edək ki, ulu öndər Heydər Əliyevin adını daşıyan BTC əsas ixrac boru kəməri hazırda təkcə Azərbaycan üçün deyil, ümumilikdə, beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün də müstəsna əhəmiyyət kəsb edən bir layihədir. BTC əsas ixrac boru kəməri mühüm texniki-iqtisadi əhəmiyyətə malik olmaqla yanaşı, həm də böyük siyasi məzmun kəsb edir. Belə ki, bu kəmər dünya dövlətləri ilə Azərbaycanın yeni münasibətlərinin qurulmasına təkan verib, ölkəmizin xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə zəmin yaradıb.

Vaqif BAYRAMOV,
"Xalq qəzeti"